# Qərbin planları sülh prosesinə zərbə vurur

**"Qərb dairələrinin uzun müddətdir ki, Cənubi Qafqaza daxil olmağa və burada möhkəmlənməyə çalışmaları region üçün çox təhlükəlidir. Bəzi postsovet ölkələrinin təcrübəsinə nəzər yetirsək, Qərbin vədlərinə inananların aqibətinin fəlakətli sonluqla nəticələndiyini görərik. İndi sə Qərb Cənubi Qafqazda bu fəlakətli vəziyyəti Ermənistanın əli ilə yaratmağa çalışır".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. Deputat bildirib ki, Qərbin bu addımları son zamanlar intensivləşib: "Rəsmi İrəvanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından (KTMT), Avropa İqtisadi İttifaqından (AİI) uzaqlaşdırılması üçün müxtəlif layihələr həyata keçirilir. Avropa İttifaqının Müşahidə Missiyası adı altında Qərbin kəşfiyyat qrupunun Ermənistanda yerləşdirilməsi bu layihələrdən sadəcə biridir. ABŞ-nin və Aİ-nin hədəfləri sırasında Ermənistanı Rusiyadan uzaqlaşdırmaq və Cənubi Qafqazda müharibəni yenidən alovlandırmaq var. Onlar Ermənistanı Azərbaycanla sülh sazişini imzalamamağa təşviq edirlər. Elə Fransanın İrəvanı silahlandırması da bu çirkin niyyətə xidmət edir".

Deputatın sözlərinə görə, aprelin 5-də Brüsseldə keçirilən ABŞ-Ermənistan-Aİ görüşü İrəvan vasitəsilə Cənubi Qafqazda yeni məkrli planların reallaşdırılması cəhdidir. Rəsmi açıqlamalarda görüşün Ermənistan iqtisadiyyatına və demokratiyanın inkişafına dəstək məqsədi daşıdığı bildirilsə də, əslində, bu "platforma"nın Qərbin geosiyasi məqsədlərinə xidmət etməsi şübhə doğurmur. Ona görə də Brüssel görüşünün məqsədlərini regionumuzda sülh quruculuğu səylərinə böyük təhdid də adlandırmaq olar.

"Qərbin öz geosiyasi maraqları naminə sərgilədiyi bu təhlükəli davranışı regionda sülh və əmin-amanlığa xidmət etmir. Təsadüfi deyil ki, Türkiyə və Rusiya rəsmi bəyanat verərək Brüssel görüşü fonunda Qərbin addımlarına kəskin etiraz edib, bu planların bölgədə sülhə və əməkdaşlığa xidmət etmədiyi və pozuculuq məqsədi daşıdığını bildiriblər. Doğrudur, ABŞ və Avropa Komissiyası rəsmiləri dövlətimizin başçısı ilə telefon danışıqlarında bu görüşün ölkəmizə qarşı olmadığı, Ermənistanla iqtisadi əlaqələrin inkişafına həsr olunduğu barədə məlumat veriblər. Lakin aydın məsələdir ki, Qərb Azərbaycan və Türkiyə kimi dövlətlərlə sərhədləri bağlı olan Ermənistanı iqtisadi böhrandan xilas edə bilməz. Azərbaycana və Türkiyəyə qarşı düşmən münasibətdə olan, Rusiyadan uzaqlaşma xətti tutan Ermənistan regiona necə inteqrasiya oluna bilər?", - deyə müsahibimiz söyləyib.

Sevinc Fətəliyeva həmçinin vurğulayıb ki, ABŞ-nin Ermənistandakı iqtisadi islahatları dəstəkləmək üçün ayıracağı 65 milyon dolların bu ölkəni dirçəldəcəyini düşünmək sadəlövhlükdür: "Bundan əlavə, o da məlumdur ki, Ermənistan iqtisadiyyatı bu gün İran və Rusiyadan çox asılıdır. Yəni Ermənistanın yaşaması Qərbə deyil, Azərbaycan, Türkiyə, Rusiya və İrana bağlıdır. Belə olan halda Qərb rəsmilərinin "Brüssel görüşü Ermənistana ticari-iqtisadi yardım xarakteri daşıyır" fikirləri reallıqdan tamamilə uzaqdır. Aydındır ki, Qərb Cənubi Qafqazda yer tutaraq bölgəni istədiyi kimi idarə etmək istəyir. Bu mənada Brüssel görüşünün əsas hədəflərindən biri Ermənistanın Rusiyadan uzaqlaşdırılması, bunun qarşılığında İrəvanın anti-Azərbaycan, anti-Türkiyə siyasətini dəstəkləməkdən ibarət idi. Lakin reallıq odur ki, Qərb kiçik və zəif Ermənistan vasitəsilə bölgədə öz çirkin planlarını reallaşdıra bilməyəcək. Burada zərərçəkən isə yalnız Ermənistan olacaq".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 10 aprel, №74.- S.8.